## ABŞERON YARDIMÇI TƏCRÜBƏ TƏSƏRRÜFATI
## (əkinçilik istiqamətli)



**Ünvan: AZ1098, Bakı şəhəri, Pirşağı qəsəbəsi, 2 saylı Sovxoz**
**Direktor: Tağıyev Soltan Tağı oğlu**
**Mobil: (+99470) 365-04-18**
**E-mail: *taqiev.soltan@mail.ru***



Abşeron Yardımçı Təcrübə Təsərrüfatı 1966-cı ildə yaradılmışdır. Hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2015-ci il 109 nömrəli Qərarı ilə Əkinçilik ET İnstitutunun struktur tabeliyndə fəaliyyət göstərir. Abşeron YTT institutun mövzu planına uyğun olaraq qoyulacaq tarla təcrübələrinə aqrotexniki xidmətlər göstərən, rayonlaşmış sortların toxumçuluğu ilə məşğul olan təsərrüfat hesablı müəssisədir.

Abşeron YTT-nin strukturuna mühasibatlıq və təsərrüfat bölməsi daxildir. Burada 8 nəfər çalışır.Abşeron YTT-yə 172 hektar torpaq sahəsi təhkim edilmişdir, ondan 128 hektarı kənd təsərrüfatına, 66 hektarı əkinə yararlıdır. Hər il rayonlaşmış buğda və arpa sortlarının 35-40 ton yüksək kondisiyalı orjinal, super elit və elit toxumları istehsal olunur və Kənd Təsərrüfatı Nazirliyinin bölgüsü əsasında dövlət və özəl toxumçuluq təsərrüfatlarına verilir.

**Fəaliyyət istiqamətləri:**

- Abşeron bölgəsində suvarılma şəraitində buğda, arpa, ərzaq paxlalıları, yemçilik proqramına və mövzu planına uyğun olaraq dənli, dənli-paxlalı və yem bitkilərinin yüksək məhsuldar və keyfiyyətli, xəstəliklərə davamlı sort və hibridlərin yaradılması istiqamətlərində seleksiya işlərinin aparılması ilə əlaqədar qoyulacaq tarla təcrübələri üçün müvafiq torpaq sahəsinin ayrılması və səpin üçün hazırlanması;
- Davamlı Əkinçilk və bitki diversifikasiyası proqramına uyğun olaraq müxtəlif rotasiyalı növbəli əkin sisteminin, bitkilərin məhsuldarlığını və keyfiyyətini yüksəldən becərilmə texnologiyalarının işlənib hazırlanmaları üçün aqrotexniki qulluq işlərinə dəstəyinin göstərilməsi;
- Rayonlaşmış yumşaq buğda və arpa sortlarının ilkin toxumçuluğunun təşkili, yüksək kondisiyalı orijinal, super-elit və elit toxumlarının istehsalı.




